# AZƏRBAYCAN RESPUBLİKASI
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№288/3** **30 iyun 2017-ci il**

## "Kənd təsərrüfatı kooperativlərində auditin aparılmasına dair Təlimat" barədə

Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsinin 8.2-ci "Elektron kənd təsərrüfatının qurulması, qeydiyyat, uçot və statistika sisteminin təkmilləşdirilməsi" maddəsinin 8.2.10-cu "Kənd təsərrüfatında ilkin uçotun təşviqi" bəndinə, «Auditor xidməti haqqında» Azərbaycan Respublikasının Qanununa, «Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında» Əsasnaməyə müvafiq olaraq, Azərbaycan Respublikasının Auditorlar Palatasının 2017-ci il üzrə iş planının 1.14-cü "Auditor fəaliyyəti ilə əlaqədar proqramlar, təlimatlar, tövsiyələr və metodik göstərişlərin hazırlanması" bəndinin icrası ilə əlaqədar sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbovun təqdim etdiyi materialı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Kənd təsərrüfatı kooperativlərində auditin aparılmasına dair Təlimat" bəyənilsin (əlavə olunur).
2. Palata Aparatının rəhbəri Q.Bayramova tapşırılsın ki, "Kənd təsərrüfatı kooperativlərində auditin aparılmasına dair Təlimat"ın Azərbaycan Respublikası Prezidentinin İqtisadi siyasət və sənaye məsələləri şöbəsinə, Aqrar siyasət məsələləri şöbəsinə, Azərbaycan Respublikasının İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinə, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasına göndərilməsini təmin etsin.
3. Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov) tapşırılsın ki, iki həftə ərzində "Kənd təsərrüfatı kooperativlərində auditin aparılmasına dair Təlimat"ın auditor təşkilatları və sərbəst auditorlara göndərilməsini təmin etsin.
4. Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov) və sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, 2017-ci ilin ikinci yarısında həmin Təlimata dair Palatanın üzvləri üçün seminarın keçirilməsini təmin etsinlər.
5. Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov) tapşırılsın ki, "Kənd təsərrüfatı kooperativlərində auditin aparılmasına dair Təlimat"ın auditorların ixtisasartırma kursunun tədris proqramına daxil edilməsini təmin etsin.
6. Bu qərarın və "Kənd təsərrüfatı kooperativlərində auditin aparılmasına dair Təlimat"ın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**